السنّة النبوية وعلومها
www.sunnah.global

# Cəhənnəm odunda (yanan) dabanlara vay olsun, dəstəmazı tam alın

Abdullah bin Amr (Allah onların hər ikisindən razı olsun) demişdir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ilə Məkkədən Mədinəyə qayıdarkən yolda su tapdıq və insanlar əsr namazı üçün tələsdi və tələsik formada dəstəmaz aldılar. Biz onların yanına gəldikdə, dabanlarına su dəymədiyi görünürdü. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Cəhənnəm odunda (yanan) dabanlara vay olsun, dəstəmazı tam alın".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələri ilə birlikdə Məkkədən Mədinəyə səfər etdi və yolda su tapdılar. Bəzi sahabələr əsr namazı üçün dəstəmaz almağa o qədər tələsdilər ki, ayaqlarının arxalarının quru olduğu baxan kəsə aşkar göründü. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: Dəstəmaz alarkən ayaqlarının arxasını yumaqda səhlənkarlıq edənlərə cəhənnəmdə əzab və həlak vardır və onlara dəstəmazı kamil almağı əmr etdi.

https://www.sunnah.global/hadeeth/az/show/66392

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee